# TÖVHİDƏ ZİDD ƏMƏLLƏR

*Əbdüləziz ibn Reys Ər-reys*

## Ön söz

### Rəhimli və Mərhəmətli Allahın adı ilə

Sizə Allahın salamı, rəhməti və bərəkəti olsun.

Əlinizdəki kitabın səhifələrində Allahın ən böyük əmri sayılan tövhid və ən böyük qadağası olan Ona şərik qoşmaqdan söhbət açılır.

Möhtərəm oxucular! Sələfin metoduna əsaslanan Əhli sünnə vəl-camaat tərəfdarlarının hər birinə məlumdur ki, Allahın peyğəmbərləri göndərməsində və məxluqatı yaratmasında yeganə məqsədi onların tövhid prinsipinə riayət etmələri və Ona şərik qoşmayaraq belə bir əməldən uzaq durmaları idi. Ən böyük düşmənimiz olan lənətlənmiş şeytan bundan xəbər tutanda özünün atlı və piyadalarını səfərbər edərək cəmiyyətin müxtəlif təbəqələrdən olan Allah qullarını istər dəvətçilərini və ya qeyrilərini, alimlərini və ya avamlarını tövhid prinsipini öyrənməkdən və ona riayət etməkdən çəkindirməyə başladı. Allahın mərhəmət göstərdiyi kəslər bundan xali idi. Şeytan tövhid prinsipinə dəvəti insanları siniflərə bölən, onlar arasında ayrıseçkilik salan, bu haqda bilgiyə malik olduqlarına görə ona ehtiyacları olmayan faydasız bir iş kimi bəzəmişdir. Əcaba, elçi və peyğəmbərlərin əhəmiyyət vermədikləri bu sözlərə bizmi əhəmiyyət verək? Sonra da tövhidə dəvətdən üz çevirək? Bilirsinizmi onlar nəyə görə bu sözləri mənasız sayırdılar? Çünki bu şəxslər Allahın verdiyi elm sayəsində dərk etmişdilər ki, tövhidə çağırışın məqsədi nöqsansız Allahın ibadətlərdə təkləşdirilməsidir. Buna görə də nicat yolu yalnız onların yoludur. Bu yol da Allah təalanın buyurduğu kimi birdir: **“Bu, şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın.”** (əl-Ənam, 153) Məgər həqiqi dəvətçilərin vəzifəsi peyğəmbərlərin apardığı dəvəti yəni, tövhid prinsipinə çağırışı dirçəltmək deyilmi? Şeytanın azdırdığı avam insanlar deyir: “Tövhid prinsipini hər kəs bilir. Bizim Tövhid əhli olduğumuz halda ona çağırılmağımıza nə ehtiyac var? Onlara cavab olaraq deyilir ki: Subhənallah! Bu sözlər necə söylənilə bilər. Axı bir çox İslam və qeyri İslam ölkələrini açıq-aydın böyük şirk zülməti bürümüşdür. Bu məsələyə irəlidə toxunacağıq. Tutaq ki, şirk hər kəsə bəlli bir mövzudur. Lakin buna baxmayaraq bizim onu diqqət mərkəzində saxlamağımıza və ondan Allaha sığınmağımıza həmişə ehtiyacımız var. Biz, (tövhid prinsipinə riayətdə) İbrahim xəlilullaha *(ona Allahın salamı olsun!)* bərabər olmadığımızı da yaxşı bilirik. Bununla yanaşı o, *(ona Allahın salamı olsun!)* Allaha belə dua etmişdi: **“Mən və oğullarımı bütrərə tapınmaqdan uzaq elə.”** (İbrahim,35) İbrahim ət–Teymi belə demişdi: İbrahim Peyğəmbərdən *(ona Allahın salamı olsun!)* sonra bəladan yəni, şirkdən qurtulmasına kim əmin ola bilər? Bunu İbn Əbi Hatim və İbn Cərir ət-Təbəri rəvayət etmişlər.

Biz heç vaxt ən xeyirli əsrin insanları olan Peyğəmbərin *(ona Allah salavatı və salamı olsun!)* səhabələri kimi ola bilmərik. Lakin Allahın Elçisi *(ona Allah salavatı və salamı olsun!)* ölümü ilə nəticələnən xəstəliyində belə onlara tövhidi tövsiyə edirdi.

Belə olan halda ey insanlar! Tövhidi öyrənməyə və başqalarını da ona dəvət etməyə tələsin! Həqiqətən də, tövhidi öyrəmək, onu təbliğ etmək, tələblərinə əməl etmək bu dünyada İslam dövlətinin qurulmasına axirətdə isə Firdovs cənnətinə nail olmağımıza səbəbdir. Uca Allah buyurur: **"Allah aranızda iman gətirib yaxşı işlər görənlərə - yalnız mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar, deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisi edəcəyini, onlar üçün onların Allahın özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur."** (ən-Nur, 55)

Möhtərəm Oxucu! İndi isə tövhidə zidd əməllərdən çəkinməyimiz və eləcə də kəramət sahibi Allahın razılığını qazanmağımız üçün onlardan bir neçəsini sizə təqdim edirik.

# Tövhidə zidd əməllər

1. Bir çox İslam ölkələrində Allahdan qeyrisinə ibadətin məsələn, dünyasını dəyişmiş insanlara dua edilməsinin və sairənin geniş yayıldığını görürük. Onlardan günahlarını bağışlamağı, kədərlərini dağıtmağı, övlad və şəfa verməlērini istəyirlər. Həmçinin, onlar üçün qurban kəsir, nəzir verir, qəbirlərinə üz tutub namaz qılır, ətraflarında təvaf və səcdə edirlər. Hətta bu kəslərin qəlbləri namaz vaxtı Rəblərinin qarşısında dayandıqda qəbirlərin qarşısında dayandıqları kimi titrəmir və gözləri də həmin cür yaşla dolmur. Aman Allah necə də təəccüblüdür! Məgər bu insanlar belə əməlləri ilə böyük şirkə yol verdiklərini və nəticədə etdiklərinin puça çıxdığını bilmirlərmi?

Allah təala buyurur: **"De: "Mənim namazım da, ibadətim də, həyatım və ölüm də aləmlərin Rəbbi Allah üçündür. Onun heç bir şəriki yoxdur. Mənə belə buyrulmuşdur, və mən ilk müsəlmanlardanam."** (əl–Ənam ,162,163) Başqa bir ayədə isə uca Allah belə buyurur: **"Şübhəsiz ki, məsçidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin!"** (əl–Cinn, 18) Yəni Allahdan başqa heç kimə ibadət etməyin. Allahla yanaşı başqa məbuda ibadət etmək, istər göndərilmiş peyğəmbərə, istərsə də yaxın mələyə olsun, hər bir halda Allaha şərik qoşmaq sayılır. Çünki o, yalnız Allaha aid olan bir işdir. Allah bu böyük şirk haqda belə buyurur: **"Şübhəsiz ki, Allah ona şərik qoşmağı əsla bağışlamaz!"** (ən–Nisə, 48). Digər ayədə isə buyurur: **"Həqiqətən, Allah özünə şərik qoşana Cənnəti haram etmişdir. Onun sığınacağı cəhənnəmdir!"** (əl–Maidə,72) Başqa bir ayədə buyurur: **"Əgər (Allaha) şərik qoşmusansa əməllərin puça çıxacaq!"** (əz–Zumər, 65). O həmçinin buyurur: **"Allaha şərik qoşan kimsə göydən düşən ,quşların onu sürətlə alıb apardığı,yaxud küləyin onu sovurub uzaqlara atdığı bir şeyə bənzər."** (əl–Həcc,31)

Allahdan bizi (şirkdən) sağ-salamat etməsini istəyirik.

2.Tövhid kəlməsinə yəni, (*Lə iləhə illəllah*)–a "Allahdan başqa xaliq (yaradan) yoxdur" və ya "Ondan başqa xəlq etməyə qüdrəti olan yoxdur" mənasında açıqlama vermək. Halbuki belə bir izah özlüyündə natamamdır. Həmçinin o, Quranda və Sünnədə varid olan açıqlamalara ziddir. Uca Allahın (Öz Kitabında), Qureyş kafirlərinin də Onun yaradan, ruzi verən və işlərə tədbir tökən olmasını iqrar etdiklərini bizə xəbər verməsi məsələyə tam aydınlıq gətirir. Uca Allah buyurur: **"(Ya Rəsulum!) Həqiqətən, əgər sən (müşriklərdən): "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyə cavab verəcəklər."** (Loğman, 25) Əgər tövhid kəliməsi həqiqətən də bu mənanı versəydi, onlar mömin sayılardılar. Bəs elə isə, nə səbəbdən bu kəlməni deməyə təkəbbürlük göstərir və onu təəccüblə qarşılırdılar. Uca Allah

Qurani kərimdə onların aşağıdakı sözləri dediklərini xəbər verir: **"Əcaba, o, (Allahdan başqa heç bir tanrı yoxdur deməklə) tanrıların hamısını bir tanrımı edir? Bu, doğrudan da, çox təəcüblü bir şeydir."** (Sad, 5) Deməli, bu kəlimə: "pak və uca Allahdan başqa ibadətə layiq məbud yoxdur" – mənasındadır. Qureyş kafirləri məhz bu mənanı, yəni Allahın ibadətdə təkləşdirilməsini təəccüblə qarşılamış və ona öz etirazlarını bildirmişlər.

3. Sevgili peyğəmbər *(ona Allahın salavatı və salamı olsun!)* barəsində ifrata yol vermək. Həqiqətən peyğəmbərimiz Məhəmmədin *(ona Allahın salavatı və salamı olsun!)* yüksək dərəcəsi və qiymətli yeri var. Bu məqama heç kəs, nə bir mələk, nə də bir insan və ya cin çata bilməz. O *(ona Allahın salavatı və salamı olsun!)* həm şəfaətçi, həm də Qiyamət günü ən çox davamçısı olan peyğəmbərdir. Rəbbi onu ən əzəmətli sifətlə vəsf edərək buyurur: **"(Ey ümmətim!) Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, mö'minlərlə şəfqətli, mərhəmətlidir!"** (ət–Tövbə, 128). Muhəmməd peyğəmbər *(ona Allahın salavatı və salamı olsun!)* Özü barəsində ifrata varmağı bizə qadağan etmiş və Buxarinin Ömər ibn əl–Xattabdan olan rəvayətində belə buyurmuşdur: ***"Məni nəsranilərin Məryəm oğlu İsanı mədh etdikləri kimi mədh etməyin. Şübhəsiz ki, mən də bir qulam. Elə isə mənə, Allahın qulu və elçisi deyin."*** O *(ona Allahın salavatı və salamı olsun!)*, Allaha aid olan heç bir işdə məsələn qeybi bilmək və sairədə Ona ortaq ola bilməzdi. Çünki o *(ona Allahın salavatı və salamı olsun!)* bir qul və özünün dediyi kimi Rəbbinin dinini yayan bir peyğəmbər idi. O *(ona Allahın salavatı və salamı olsun!)* buyurur: ***"Sözsüz ki, mən də sizin kimi bir başər övladıyam. Sizin nəyisə unutduğunuz kimi mən də unuduram."*** Hədisi Buxari və Müslim İbn Məsuddan *(Allah ondan razı olsun)* rəvayət etmişdir.

Bəzi cahillərin Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) barəsində ifrata vardıqları bir neçə məsələ:

a) Onun qeybi bilməsini və dünyanın ona görə yaradılmasını iddia etmək. Yolunu azmış bu kəslərdən biri şerində deyir: Ey məxluqatın ən kəramətlisi, çətin anlarda səndən başqa sığınacağım heç kəs yoxdur. Əgər bu çağırışımda mənim əlimdən tuta bilməyəcəksənsə (yəni, kömək və s. etməyəcəksənsə), onda mənə bədqədəm de (yəni, artıq həlakıma hökm ver). Dünya və onun əyalı sənin səxavətindəndir, lövhi-məhfuz və onu yazan qələmin elmi sənin biliklərindəndir.

b) Peyğəmbərdən (ona Allahın salavatı və salamı olsun!) günahların bağışlanmasını diləmək və Cənnətə daxil olmaq üçün ona niyaz etmək. Bu, Allaha məxsus və heç kəsin də bu məsələdə Ona şərik ola bilməyəcəyi bir işdir. Allah Elçisinin (ona Allahın salavatı və salamı olsun!) özü, Rəbbindən Onun rəhməti sayəsində Cənnətə daxil edilməsini diləyərdi. İmam Müslim Əbu Hüreyrədən Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) belə dediyini rəvayət edir: ***"Sizlərdən heç biriniz öz əməli sayəsində Cənnətə daxil olmayacaq. Dedilər: Məgər siz də, Ya Rəsulallah (Cənnətə öz əməliniz sayənizdə daxil ola bilməyəcəksiniz–tər)? O buyurdu: Bəli, hətta mən də Allahın mərhəməti və lütfkarlığı ilə Cənnətə daxil olacam."***

c) Allah Elçisinin qəbrini ziyarət etmək məqsədilə səfərə çıxmaq. Bu işin qadağan olmasında bütün səhabələr həmrəydirlər. Buxari və Müslümün Əbu Səid əl-Xudridən *(Allah ondan razı olsun)* rəvayət etdikləri hədisdə Peyğəmbər *(ona Allah salavatı və salamı olsun)* buyurmuşdu: ***"Yalnız üç məscidə ziyarətə getmək olar: Məscidülhəram (Kəbə yerləşən məscid), Məscidüləqsa (Beytülmüqəddəs) və mənim məscidim (Məscidünnəbəvi)."***

Ey İslam qardaşım! Bil ki, Peyğəmbərin qəbrini ziyarət etməyin fəziləti haqda rəvayət olunan bütün hədislər, alimlərin bildirdiyi kimi zəifdir. Həmin məsciddə namaz qılmaq niyyəti ilə səfərə çıxmaq isə bəyənilən bir əməldir.

d) İnanmaq ki, Məsçidünnəbəvinin fəzilətinə səbəb, Peyğəmbərin (ona Allahın saıavatı və salamı olsun!) qəbrinin orada olmasıdır. Bu böyük bir xətadır. Ona görə ki, Peyğəmbərin *(ona Allahın salavatı və salamı olsun!)* özü, dünyasını dəyişməzdən qabaq orada qılınan namazın fəziləti haqda xəbər vermişdi.

4. Sehrbaz, kahin, falçı və bu qrupdan olan insanların yanına gedib dediklərini təsdiqləmək. Belə bir əməl Məhəmmədə *(ona Allahın salavatı və salamı olsun!)* nazil olana küfr etməkdir. Dörd hədis alimi (ət–Tirmizi, İbn Macə, Əbu Davud və ən–Nəsai) Əbu Hüreyrədən Allah elçisin (ona Allahın salavatı və salamı olsun!) belə dediyini rəvayət edirlər: ***"Falçının və ya kahinin yanına gedib onun dediklərini təsdiqləyən Məhəmmədə nazil olana küfr etmiş olur."*** Hədis səhihdir. Izzət və cəlal sahibi Allah bu haqda buyurur: **"Süleyman** (bu kitablara uymadığı üçün) **kafir olmadı, lakin şeytanlar** (bildikləri) **sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular."** Sonra isə buyurur: **"Həqiqətən, onlar (yəhudilər) belə şeyləri satın alanların** (Allahın kitabını şeytan əməlləri ilə mübadilə edənlərin) **axirətdə payı olmadığını yaxşı bilirlər"** (əl–Bəqərə, 102).

Özləri, arvadları və ya uşaqları xəstələnmiş bu insanların sehrbaz, kahin, falçı və sairə belə kimsələrin qapılarını şəfa diləmək niyyəti ilə döyməlerinə adam çox təəccüblənir. Məgər onlar bu dünyada müvəqqəti şəfa qazanmağa, axirətdə isə sonsuz əzab və müsibətlərə düçar olmağa razıdırlarmı? Onlar bilmirlərmi ki, Allah qula bəla verəndə bu həmin qulun dininə düzgün riayət etməsi və günahlardan əl çəkərək Allahın qarşısında pak dayanması, habelə bu bəlalara səbr edərsə, Allahın rızasını və böyük mükafatını qazanması üçün bir fürsətdi? Allah xətrinə səbr edin, dözümlülük göstərin və şəriətin icazə verdiyi müalicə yollarından məsələn, nöqsansız Rəbbimizin kəlamından ibarət ovsunlardan, Ona edilən dualardan və Ona yalvarışdan istifadə edin.

Son olaraq onu da qeyd dedək ki, sehrbaz bir neçə əlamətlərilə tanınır: Bunlardan biri də mənası başadüşülməyən sözlər donquldamasıdır və ya "Ananın adı nədir?"- və sairə kimi, mənasız (əhəmiyyətsiz) suallar vermsidir. Həmçinin səndən natəmiz yerlərdə xoruz və ya digər heyvanları kəsməyi tələb etməsidir.

5. "Dost və düşmən" (ərəb. "Vəla və Bəra") məsələsi ilə bağlı etiqadın zəifliyi.

Burada söhbət Allaha itaət etmələrindən asılı olaraq möminlərə sevgi göstərməkdən və kafirlərə mütləq, günahkarlara isə asiliklərinə müvafiq olaraq bəslənən nifrətdən gedir. Bu, Uca Allahın Öz Kitabında və Peyğəmbərin *(ona Allah salavatı və salamı olsun)* söz və əməllərindən ibarət Sünnəsində dəfələrlə hökm verdiyi əqidə məsələlərinin biridir. Belə ayələrdən birində uca Allah buyurur: **"İbrahim və onunla birlikdə olanlar** (möminlər) **sizin üçün gözəl örnəkdir.O zaman onlar öz qövmünə belə demişdilər: "Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə** (bütlərlə) **heç bir əlaqəmiz yoxdur. Biz sizi** (dininizi) **inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!..."** (əl-Mumtəhinə,4). Allah səni qorusun! Bir bax! İbrahim *(ona Allahın salamı olsun!)* nəinki qövmü, ailəsi və atası ilə, hətta onların ibadət etdikləri məbudlar ilə əlaqəsinin olmadığını bildirdi. Sonra isə o, qövmünün, o cümlədən, atasının da yalnız tək olan Allaha heç bir şeyi şərik qoşmayıb Ona iman gətirməklə bu ədavətə və nifrətə son qoyulacağını bildirdi. Diqqət yetirsək görərik ki, Allah təala İbrahimin *(ona Allahın salamı olsun!)* bu əməlini özündən sonrakılara bir örnək etmişdir. Allahın kafirlərə ədavət göstərməyi əmr edən ayələrin biri də bu aqeyd olunur: **"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalim tayfanı düz yola yönəltməz."** (əl-Maidə, 51) Pak şəriət bir çox səbəblərə, məsələn, müsəlmanın kafirlərdən

birinə çevrilmə təhlükəsi olduğuna görə onlarla dostluğu qadağa etmişdir. Onun dinini qorumaq məqsədi ilə kafirlərə ədavət bəsləməyi və dostluq etməməyi əmr etmişdir.

Kafirlərlə dostluq etməyi qadağan edən səbəblərdən biri də onların bizi azdırmaq və öz batil dinlərinə boyun əydirmək istəkləridir. Ən doğru kəlam sahibi olan pak Allah buyurur: **"Onlar özləri kafir olduqları kimi, sizi də kafir olub özlərinə bərabər olmanızı istərlər."** (ən-Nisə, 89). Quran kafirlərin bu istəklərinə qarşı bizim onlara ədavət bəsləməyimizi əmr edir. Bu ədavət isə özlüyündə onlardan uzaq olmaq tələbini irəli sürür. Belə ki, kafirlər bizi dünya və axirətdə xarab etdikləri dinlərinə tabe edərək azdıra bilməsinlər. Peyğəmbərimiz *(ona Allahın salavatı və salamı olsun!)* söz və əməliylə bu məsələyə qəti mövqe bildirmişdir. Bu deyilənləri sübuta etmək üçün aşağıdakı üç hədisi yetərli hesab edirəm.

1) İmam Müslüm səhabə Əbu Hüreyrədən Allah Elçisinin *(ona Allahın salavatı və salamı olsun!)* belə buyurduğunu rəvayət edir: ***"Yəhudilərə və nəsranilərə birinci salam verməyin. Onlardan biri ilə küçədə qarşılaşsanız, ona küçənin ən dar yerini verin."*** Yəni, kənara çəkilərək yol verməyin. Bəs elə isə, onları məclislər başında otuzdurub əzizləyən, tərifləyən və bayramlarını təbrik edən kimsələrin halı necə olacaq?

2) (Müsəlman ölkələrinə müvəqqəti daxil olarkən) əminamanlığına zəmanət verilən və ya müsəlmanlarla sülh müqaviləsi bağlayan kafirlə qardaşlıq edib, ədavətin yalnız müharibə edən kafirlərlə aparılması. Bu yanlış bir fikirdir. Istər müsəlmanlarla sülh bağlayan və ya (müsəlman ölkələrinə müvəqqəti daxil olarkən) əminamanlığına zəmanət verilən, istərsə də müharibə şəraitində olan kafirlər biri-birindən heç nə ilə fərqlənmir. Onların hamısı İslam əhlinin düşmənləridir. Müsəlman da kafirlərin düşmənidir. Allah təala bu haqda buyurur: **"Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və onun Peyğəmbəri əlehinə çıxanlarla–öz ataları, oğulları, qardaşları, yaxın qohumları olsalar belə–dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmış və Öz dərgahında onlara ruh vermişdir. Allah onları çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan, onlarda Allahdan razıdır. Bilin ki, Allahın firqəsi–məhz onlar nicata çatıb səadətə qovuşanlardır."** (əl-Mücadilə, 22) Bu ayə, bizim yəhudilərlə olan düşmənçiliyimiz torpaq üstündədir, torpaqlarımızı qaytardıqları an bizimlə onların arasında olan düşmənçiliyədə son qoyulacaq kimi iddiaların puçluğunu bir daha sübuta yetirir. Çünki, bizim onlarla düşmənçiliyimiz din və ümmət düşmənçiliyidir. Hər hansı müsəlman torpağını işğal edərlərsə, onlara qarşı olan düşmənçiliyimiz daha da artar.

3) İmam Əhmədin və Əbu Davudun İbn Ömərdən rəvayət etdikləri hədisdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdu: ***"Kİm özünü bir qövmə bənzədərsə, o da onlardan sayılar."*** Qadağan edilmiş bənzəmə kafirlərə məxsus olan, məsələn, dillərində danışmaq, libaslarını geyinmək, oxşar şəkildə saç qırxdırmaq və sairə bu kimi bənzətmələrin hamısını əhatə edir.

Ömər ibn Xattab belə demişdir: "Sizi qeyri-ərəblərin anlaşılmaz dillərindən və bayram günlərində məbədlərinə girməkdən çəkindirirəm. Çünki onların üzərinə qəzəb nazil olur." Bu rəvayəti əl-Beyhəqi nəql etmiş və imam Əhməd ibn Əbdülhəlim əl-Hərrani səhih olduğunu bildirmişdir. Kaş ki, məsələ pisliyi ilə yanaşı elə bu həddə də qalardı. Vəziyyət daha da pisləşmişdir. Bu gün onların dilində danışmaq və sairə buna bənzər əməllər tərifəlayiq bir iş hesab olunur. Allaha şikayətlənirik, biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!

Əbul-Vəfa ibn Əqil gözəl buyurmuşdur: "Hər hansı bir dövrdə yaşayan insanların İslama nə cür riayət etmələrini bilmək istəyirsənsə, onların məsçid qapılarındakı izdihamlarına

və ləbbeyk (Allahım qəbul et) sözünü yüksəkdən söyləmələrinə deyil, dinin düşmənlərinə nə dərəcədə yaxın olmalarına bax."

Bütün bu deyilənlərdən sonra sənə aydın oldu ki, məşhur "Dinlər arası dialoq və yaxud dinlərin vəhdəti" şüarı fitnə-fəsadlı bir dəvətdir. Həqiqətdə onun məqsədi İslamı köklü şəkildə dağıtmaqdır. Beləki, kəramətli Quran, Məhəmməd (sona Allahın salavatı və salamı olsun!) peyğəmbərin göndərilməsi ilə bütün dinlərin, məsələn, yəhudiliyin və xristianlığın qüvvədən düşdüyünü, dəyişikliyə uğradığını və küfrlə qarışdığını açıq-aydın bəyan etmişdir. O həmçinin bu dinlərin tərəfdarlarının da kafir olduğunu bildirmişdir. Ən doğru kəlam sahibi Allah təala belə buyurur: **"Onlar özləri kafir olduqları kimi, sizində kafir olub özlərinə bərabər olmalarını istərlər."** (ən-Nisə, 89) Digər ayədə isə buyurur: **"Allah üçün üçüncüsüdür! Deyənlər, əlbəttə ki, kafir olmuşlar."** (əl-Maidə, 73) Allah təala buyurur: **"Kitab əhlindən (yəhudilər və xaçpərəstlər) olan kafirlərdən və müşliklərdən..."** (əl- Beyyinə, 1). Qurani kərim digər dinlərin küfr üzərində olmasını bəyan etdikdən sonra bizimlə kafirlər arasında yalnız düşmənçilik və ədavət, həmçinin, onların öz dinlərini tərk edib haqq olan İslam dininə dəvət olunmaları qalmışdır.

"Dost və düşmən" (əl-Vəla vəl-bəra) kimi əhəmiyyətli bir əqidə mövzusunda ifrata varmamaq və Allahın təyin etdiyi sərhədləri aşmamaq gərəkir. Buna misal aşağıdakılardır:

a) Əmin amanlıq verilmiş və ya sülh bağlanmış bir kafiri öldürmək olmaz. İmam Buxarinin rəvayət etdiyi hədisdə Abdullah ibn Əmr Allah elçisinin (ona Allahın salavatı və salamı olsun!) belə buyurduğunu rəvayət edir: ***"Əhd bağlanılan kafiri öldürən kəs Cənnətin qoxusunu belə duymayacaq. Həqiqətən, Cənnətin qoxusu qırx il uzaqdan hiss olunur."*** Müsəlman ölkələrinə qanuni şəkildə daxil olan kafirlərin hamısı əhd bağlanan sayılır.

b) Kafirə mal verməyin birmənalı şəkildə "dost və düşmən" məsələsini pozduğunu etiqad etmək düzgün deyildir. Çünki belə hallarda vəziyyətin hansı addımla yaxşı və ya pis olacağını, tərəflər arasında kimin güclü yaxud zəif olmasını, işin ixtiyari yoxsa məcburiyyətlə yerinə yetirildiyini nəzərə almaq lazımdır. Həmçinin, bilmək lazımdır ki, zəkat verilən səkkiz qisim insanlardan biri də ürəkləri (müsəlmanlığa) isinişib bağlanmaqda olan kafirlərdir.

c) Kafirlərə zülm edib mallarını qəsb etməyin caiz olmasını etiqad etmək. Təbii ki, səhv anlayışdır. Sözsüz ki, məzlum kafirin zülmkara, hətta zülmkar müsəlman olsa belə bəd duası məqbuldur. İmam Buxari və Müslimin rəvayət etdiyi hədisdə İbn Abbas, Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) belə buyurduğunu nəql edir: ***"Məzlumun (bəd) duasından çəkinin. Allahla onun (duası) arasında heç bir pərdə yoxdur:"***

6. Şəriətin haram edib çəkindirdiyi əməllərdən biri də riyadır. Riya çətin sağalan bir xəstəlikdir. Onun mənası insanlardan kiminsə xatirinə yaxşı işlər görməkdir. O çox ciddi və gizli olduğundan Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) səhabələri üçün qorxurdu. İmam Əhmədin Mahmud İbn Ləbiddən nəql etdiyi hədisdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdu: ***"Sizin üçün ən çox kiçik şirkdən qorxuram? Onun barəsində soruşulduqda buyurdu: " Riya"***.

Ey ağıl sahibləri! Əgər Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun!) öz səhabələrinin riyakarlıq etməsindən qorxubsa, bəs elə isə bizim halımız necə olacaq? Həqiqətdə bu əməl etməkdən qorxmaq, görülən (savab) işi gizlətmək və onu aşkara çıxartmamaq imanın əlamətidir. Mən, şeytanın səni başqasına örnək olmaq bəhanəsilə tovlayıb gördüyün işi daha da aşkarda etməyə səsləməsindən ehtiyatlı olmağa çağırıram. Sənə imam Müslimin Əbu Hüreyrədən rəvayət etdiyi bir hədisi xatırlatmaq istərdim. Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"Qiyamət günü ilk sorğu–suala çəkilən, şəhid olmuş bir insan olacaq.***

***Onu Allahın hüzuruna gətirib bəxş edilən nemətləri göstərəcəklər. O da həmin nemətləri tanıyacaq. Allah təala ona buyuracaq: "Bəs bunların müqabilində sən nə etdin?" O deyəcək: "Sənin uğrunda vuruşub şəhid oldum." Allah təalə deyəcək: "Yalan deyirsən. Sən, insanların igid deməleri üçün vuruşdun. Onlar da bunu dedilər." Sonra Allah onun üzü üstə sürüdülərək Cəhənnəmə atılmasını əmr edəcək. Ikinci olaraq elmi öyrənib–öyrədən, Quran oxuyan bir kişi gətiriləcək. Onu gətirib Allahın ona bəxş etdiyi nemətləri göstərəcəklər. O bu nemətləri tanıyacaq. Allah ona buyuracaq: "Bəs bunların müqabilində sən nə etdin?" O deyəcək: "Elm öyrənmişəm və sənin (razılığını qazanmaq) üçün Quran oxumuşam." Allah təalə buyuracaq: "Yalan deyirsən." Sən, insanların alim deməleri üçün elm öyrəndin və qare deməleri üçün Quran oxudun. Onlar da bunu dedilər." Sonra Allah onun üzü üstə sürüdülərək Cəhənnəmə atılmasını əmr edəcək. Üçüncü olaraq, Allahın geniş imkanlar bəxş etdiyi bir kişi gətiriləcək. Allah ona hər növ mal-dövlət vermişdir. Ona bu nemətlər göstəriləcək. O, bunları gördükdə tanıyacaq. Allah təalə buyuracaq: "Bunları əldə etmək üçün nə əməl etdin?" O deyəcək: "Sənin sevdiyin bütün işlərdə mal-dövlətimi xərclədim." Allah təalə buyuracaq: "Yalan danışırsan. ." Sən, insanların səxavətlisən deməleri üçün bunu etdin. Onlar da bunu dedilər." Sonra Allah onun üzü üstə sürüdülərək Cəhənnəmə atılmasını əmr edəcək."***

7) Tövhidə zidd əməllərdən biri də Allaha təvəkkül etiqadının zəifliyidir. Uca Allah buyurur: **"Əgər möminsinizsə, Allaha təvəkkül edin."** (əl–Maidə, 23) Məhəmməd İbn Əbu Bəkir (yəni, İbn Qeyyim – red.) bu ayəni belə izah edir: "Buradan aydın olur ki, Allaha təvəkkül, imanın və ehsanın bütün hissələrinin, həmçinin İslama aid hər bir əməlinin özəyidir. Təvəkkülün İslamda rolu başın bədəndəki rolu kimidir."

Allaha təvəkkülün zəifliyi, insanın etiqadına çox pis təsirlər göstərir. Onlardan biri də, (mənəvi deyil) maddi vasitələrə sıx bağlanmaqdır. Beləki, xəstə adam həkimin Rəbbindən qafil olaraq həkimə ümid bəsləyir. Ehtiyac içində yaşayan bir kəs isə, haram olsa belə, oğurluq, faiz banklarında işləmək və sairə bu kimi əməlləri seçir. Son olaraq səni, səbəbərin tərk edilməsi tövhidin həqiqi şəkildə gerçəkləşdirilməsidir" fikirini dəstəkləməkdən çəkindirirəm. Çünki bu, yolunu azmış bir tayfanın nəzər nöqtəsidir. Əksinə həqiqi təvəkkül və tövhid, səbəblərə əməl etməklə sahibi Pak və uca olana etimad etməkdir.

8) Müsəlman ölkələrində geniş yayılmış tövhidə zidd əməllərdən biri də qəbirlərlə əlaqəli ifrat əməllərdir. Bunun bir neçə forması var:

a) Qəbri məscidlərin içərisinə salmaqla oranın xeir-bərəkətli olmasına inanmaq. Bu dinə əlavə edilmiş yeniliklərdəndir (ərəb. Bidət – red.). Belə əməlin haramlığı pak şəriətimizdə öz təsdiqini tapmışdır. İmam Buxari və Müslimin "Səhih" adlı əsərində Aişədən (Allah ondan razı olsun) belə rəvayət olunur: "Ummu Sələmə Həbəşistanda gördüyü məbədi Allah Elçisinə (ona Allahın salavatı və salamı olsun!) təfərrüatı ilə danışdı. O isə buyurdu: ***"Həmin insanlar arasında əməlisaleh kişi və yaxud əməlisaleh qul ölərdisə, onların qəbirləri üzərində məsçidlər tikər, üstünə şəkillər çəkərdilər. Belə insanlar Allah qatında yaradılanların ən pisləridir."***

Yenə də həmin əsərlərdə Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) belə buyurduğu qeyd olunur: ***"Yəhudi və xaçpərəstlərə Allah lənət etsin. Onlar öz peyğəmbərlərinin qəbirlərlərini səcdəgaha çevirdilər."***

b) Qəbirlərin üzərində tikili qurmaq və onların üstünü bərkitmək.

İmam Müslimin rəvayətində Cabir ibn Abdullah (Allah onların hər ikisindən razı olsun!) belə deyir: *"Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) qəbirlərin üstünü bərkitməyi, onların üzərində oturmağı və tikili qurmağı qadağan etmişdir."* Peyğəmbərin qəbirlərin üstünü bərkitməyi

və onların üzərində tikili qurmağı haram edən əmrini müsəlmanların bu günki durumu ilə müqaisə et. Allah onları doğru yola yönəltsin!

Ey müvəhhid qardaşım! Onu da bilməlisən ki, şəriət, qəbirlərin üzərində tikili qurmağı və onların üstünü bərkitməyi şirkin əmələ gəlməsinə vasitə olduğundan qadağan etmişdir. Allah hamımızı Allaha şərik qoşmaqdan və ona aparan bütün vasitələrdən qorusun!

9) Müsəlmanlar arasında geniş yayılmış və tövhidə xələl gətirən əməllərdən biri də bəzilərinin boyunlarından, əllərindən və habelə övladlarının üzərindən asdıqları gözmuncuqları və parçalardır. Onlar bu əşyaların xeyir gətirəcəyini və bəlalardan (bədnəzərdən və s.) qoruyacağını zənn edirlər. Həmin əməlin tövhidə xələl gətirməsinə səbəb isə, pak və ali şəriətin onu tənqid etməsi və ondan çəkindirməsidir. İmam Əhməd mötəbər bir isnadla Uqbə ibn Amirdən rəvayət edir ki, Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) belə buyurmuşdu: *"Kim tilsim*[1] *asarsa, artıq Allaha şərik qoşmuşdur."* İbn Məsud isə, demişdir: "Tilsim və ovsun şirkdir."[2] Tilsim, (xeyir-bərəkət əldə etmək, bədnəzərdən qorunmaq və s. üçün boyundan, qoldan, paltardan, minikdən və s.) asılan gözmuncuğunu və bu qrupdan olan əşyaları əhatə edir. O, xeyirə səbəb olmasa da, yenə də bunun üçün istifadə olunur.

Ey mənim iman qardaşım! Onu da bilməlisən ki, tilsimin haram olmasına dair rəvayət edilən hədis, hətta Qurandan götürülən tilsimi də şamil edir. Çünki davranış və ibadət baxımından insanların ən xeyirlisi olan Peyğəmbərimiz (ona Allahın salavatı və salamı olsun!) belə əşyalardan istifadə etməmişdir. Maraqlı tərəf ondan ibarətdir ki, bu cür əşyaların əksəriyyətini asanlar onların Qurandan götürüldüyünü iddia etsələr də, açıb içərilərinə baxdıqda, heç də belə olmadığına və orada anlaşılmaz sözlərin yazıldığına şahid oluruq. Əgər şübhə edirsənsə, bunu təcrübədən keçir. Sözsüz ki, təcrübə ən doğru sübutdur. Son olaraq Allah təalanın bir ayəsini xatırlatmaq istərdim: **"Əgər Allah sənə bir zərər toxundursa, onu özündən başqa heç kəs sovuşdura bilməz. Əgər Allah sənə bir xeyir diləsə, heç kəs Onun nemətini geri qaytara bilməz. Allah onu bəndələrindən istədiyinə nəsab edər. O, bağışlayandır, rəhm edəndir!"** (Yunus,107)

10) İşin nəs gətirməsinə inanmaq.

Bu, bir işi davam etdirmək və ya dayandırmaq üçün hansısa əlamətə inanmaqdır. Əslində isə o, heç səbəb belə deyildir. Məsələn, sübh tezdən ticarətə başlayanda axsaq birinin qarşına çıxması və yaxud qarğa səsi eşitməklə işi dayandırmaq[3]. Məlumdur ki, axsaq birini görmək və ya qarğa səsi eşitmək ruzinin əldə olunması üçün maneçilik törədən və ya bəla gətirən səbəb sayıla bilməz. Bununla da həmin əməlin şirk (Allaha şərik qoşmaq) olduğu bəlli olur. Buxari və Müslimin Ənəsdən rəvayət etdiyi hədisdə Peyğəmbərimiz (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"Nə xəstəliyin yoluxması, nə də işin nəs gətirməsi düzgün deyildir. Bircə fəl xoşuma gəlir. Soruşdular ki, fəl nədir? O: "Xoş söz"– buyurdu.*** Tirmizinin ibn Məsuddan rəvayət etdiyi və isnadının mötəbər olduğunu dediyi hədisdə Allah elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdu: ***"Nəs əlamətlərə inanmaq Allaha şərik qoşmaqdır."***

11) Allahın hər yerdə olmasına inanmaq. Bu inanc Qurana, Sünnəyə, alimlərin yekdil rəyinə, sağlam düşüncəyə və insan fitrətinə açıq-aydın ziddir. Çoxsaylı dəlillərə əsasən Allah, səmanın üzərindədir. O, özünəlayiq tərzdə ərşinə yüksəlmişdir. Nöqsansız Allah buyurur:

---

[1] Həmayil, tilsim, dua, gözmuncuğu

[2] Rəvayəti Əbu Ubeyd Qasim ibn Səllam səhih isnadla rəvayət etmişdir.

[3] Kiminsə əlinin yüngül və ya ağır olduğuna, qara pişik keçən küçədən qeri qayıtmağa, ayağa süpürgə dəydikdə şərə düşəcəyinə, 13 rəqəminin xeyir gətirmədiyinə, tək və ya cüt səbrin işin düzəlməsinə təsir göstərdiyinə və s. bu kimi əlamətlərə inanmaq.

**“Rəhman ərşə yüksəldi.”** (Taha,5). Quranın yeddi ayəsində bu cür buyurulur. Başqa bir ayədə buyurulur: **“Göydə olanın yer hərəkətə gəlib çalxalandığı zaman sizi onun dibinə batırmayacağına əminsinizmi?”** (əl-Mülk, 16). Imam Müslimin “Səhih” əsərində Müaviyə ibn əl-Həkəmdən rəvayət etdiyinə görə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) cariyəyə belə buyurmuşdu: ***“Allah haradadır?”*** O isə: “Səmada” – deyə cavab vermişdi. Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!): ***“Onu azad et. Çünki o, mömindədir.”***

Bir kəs dua etmək istədikdə qəlbən Allahın səmada olduğunu isbat edərək əllərini göyə qaldırır. Allahın səmanın üzərində olmasının mənası, hər bir məxluqatın üzərində olması deməkdir.

Möhtərəm oxucu! Yaradanı bütün nöqsanlardan uzaq tutacaq fikir hansıdır? Allahın pak və ya natəmiz olan hər bir yerdə olması, yoxsa bütün aləmlərin fövqündə durması və yaratdıqlarından heç birinin onu ehtiva edə bilməməsi? Allah, xata edənlərin dediyindən uca və pakdır.

12) Allahdan başqasına and içmək.

Məsələn, əmanətə, Peyğəmbərə (ona Allahın salavatı və salamı olsun!) və nemətə and içmək və s. hamısı şirkdir. Buna sübut Buxari və Müslimin “Səhih” adlı əsərlərində İbn Ömərdən rəvayət etdikləri hədisdir. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***“Allah atalarınıza and içməyi sizə qadağan etmişdir. Ona görə də kim and içirsə, Allaha and içsin ya da sussun.”*** Allahdan qeyrisinə and içməyin şirk olduğunu bildikdən sonra sən mütləq şəkildə ondan çəkinməlisən. Həmçinin şirk olduğu bəlli olan bütün işlərə səhlənkar yanaşmamalısan. Çünki o, ən böyük günahdır.

13) Allahın nazil etdiyi qanunlarla hökm verməmək və onları dünyəvi qanunlarla əvəz etmək. Istər həmin qanunlar kafir ölkələrindən, istərsə də digərlərindən iqtibas edilsin. Buna misal, bəzi qəbilələrin öz adət-ənənələrinə və ya öz aralarında razılaşdıqları məsələyə uyğun hökm vermələridir. Bütün bunlar Allah tərəfindən haram edilməsi ilə yanaşı, əmin–amanlığın itməsinə və iqtisadi tənəzzülə aparan bir səbəbdir. Uca Allah buyurmuşdur: **“Məgər onlar cahiliyyə dövrünün hökmününü istəyirlər. Tam qənaət sahibi olan bir camaat üçün Allahdan yaxşı hökm edə bilən kimdir?”** (əl– Maidə, 50)

Həmçinin bu dini və əqli zəiflin nişanəsidir. Dini zəifliyə gəldikdə buna səbəb, onun şəriət hökmümə zidd və eləcə də pak və uca Allaha asilik olmasıdır. Əqli zəiflik isə, bəşəriyyətin Rəbbinin onlara nəyin yaxşı olduğunu bilməsi ilə izah olunur. Beləki Allah, insanlara münasib bir qanunlar vermişdir. Necə ola bilər ki, insan Allahın hökmündən üz çevirərək, özü kimi bir bəşərin hökmünə üz tutsun? Allahdan diləyimiz budur ki, müsəlmanların başçılarını Onun şəriətinə müvafiq hökm etməyə və Onun Peyğəmbərinin (ona Allahın salavatı və salamı olsun!) yoluna boyun əyməyə yönəltsin. Kaş ki, belə bir əməlin onlara dünya və axirətdə şərəf olmasını biləydilər.

14) Müsəlmanlar arasında geniş yayılmış və tövhidə zidd olan əməllərdən biri də onların namaz qılmamalarıdır. Bir çox alimlər, səhabələrin yekdil rəy ilə namaz qılmayan insanın küfr edib İslam millətindən çıxmış olduğunu dediklərini qeyd etmişdir. İmam Müslimin Cabirdən rəvayət etdiyi hədisdə Allah elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdu: ***“Şübhəsiz ki, insanla şirk və ya küfr arasında yalnız namazı tərk etmək dayanır.”***

Bütün müsəlmanların bilməsi gərəkən şeylərdən biri də budur ki, əgər vəfat etmiş kəs namaz qılmayandırsa onun meyidi yuyulmur, kəfənlənmir, müsəlman qəbirsanlıqlarında dəfn edilmir, miras qoymur və ona rəhmət oxunmur. Yaxınları onun cənazəsini namaz məqsədilə müsəlmanlar qarşısına çıxardarlarsa, müsəlmanları aldatmış sayılırlar. Allahdan bizi

qorumasını diləyirik. Namaz qılmayanı belə bir aqibətin gözlədiyi tədqirdə, bəzi insanlar biz yaşa dolanda namaz qılacağıq deyə, nə vaxta qədər namazdan imtina edəcəklər? Məgər onlar, yuxarıda qeyd olunan bütün ehkamların həddi buluğa çatdıqdan sonra ölən insana tətbiq olacağını və belə üzürlərin onlara Allah qatında fayda verməyəcəyini bilmirlərmi? Uca Allah deyir: **"Allaha tərəf qaytarılacağınız gündən qorxun. Hər kəsə gördüyü əməlin əvəzi veriləcək və heç kəsə zülm olunmayacaqdır!"** (əl-Bəqərə, 281)

15) Hər hansı şəxsə kafir adı verməkdə (təkfir etməkdə) tələsmək. Müəyyən bir müsəlmanı təkfir etmək çox təklükəli bir məsələdir. Bunun üçün gündüz vaxtı günəşin səmada açıq-aydın seyr edildiyi kimi səlis dəlillər olmalıdır. Həmçinin belə bir iddia üçün mütləq şəkildə bütün şərtlər cəm edilməli və maneələr aradan qaldırılmalıdır. Onları müxtəsər olaraq qeyd edirik:

a) Bilik. Həmin şəxs bu əməlin küfr olduğunu bilməlidir. Buna əks olan bilməməzlik (cahillik) isə, təkfirə maneə törədən amildir. İnsan bilmədiyi bir işə görə kafir hesab edilməz. Uca Allah buyurur:: **"Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa,onu istədiyi yola yönəldər və Cəhənnəmə vasil edərik.Ora necə də pis yerdir!" (**ən-Nisə, 115). Əgər kiməsə məsələ aşkar olmayıbsa, Cəhənnəm əzabı haqda olan dəlillər onu şamil etmir.

b) Küfr sözün və yaxud hərəkətin məqsədyönlü şəkildə edilməsi. Yəni, dediyi sözü və ya etdiyi hərəkəti bilərəkdən etməsi. Buna əks olan maneə isə, həmin şəxsin bu işi, yəni sözü və ya əməli səhvən etməsidir. Allah təala bu barədə buyurur: **"Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma!"** ( əl-Bəqərə,286). Uca Allah (buna cavab olaraq) qüdsi hədisdə buyurur: *"Artıq etdim (yəni, bu hallarda sizə cəza verməyəcəm)"* . Hədisi Müslim rəvayət etmişdir.

c) Əməli öz ixtiyarı ilə etmək. Bunun əksi olan maneə isə, məcburiyyətdir. Uca Allah buyurmuşdur: **"Qəlbi imanla sabit olduğu halda (küfr deməyə) məcbur edilən istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu bəla gözləyir)."** (ən–Nəhl, 106)

d) Caiz olmayan yozum. Bunun əksi olan maneə isə, caiz yozumdur. Bunu səhabələrin içki içməyi halal bilən kəslər barədə gəldikləri yekdil qərar, yəni, həmin adamların kafir olmaması fikri də təsdiqləyir. Belə ki, təqva və imanla bərabər şərab içməyi icazəli hesab edənlər, Allah təalanın ayəsini səhv yozmuşdular. Uca Allah buyurur: ***"İman gətirib yaxşı iülər görənlərə pis əməllərdən çəkinib iman gətirdikləri, saleh əməllər etdikləri, sonra pis əməllərdən çəkinib iman gətirdikləri, sonra yenə də pis əməllərdən çəkinib yaxşı işlər gördükləri təqdirdə, (haram edilməmişdən əvvəl) daddıqları (yeyib–içdikləri) şeylərdən ötrü günah tutulmaz."*** (əl-Maidə, 93) Yuxarıda qeyd olunan hadisəni Əbdürrəzzaq səhih bir isnadla rəvayət etmişdir. Həqiqətdə içki böyük günahlardandır. Əgər onlar bunu yozaraq etməsəydilər kafir olardılar. Çünki, bu kimsələr böyük günah olan içkini halal hesab etmişdilər.

İmam Buxarinin Abdullah ibn Ömərdən (Allah onların hər ikisindən razı olsun!) nəql etdiyi rəvayətdə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"Kim qardaşına kafir deyərsə və bu onun dediyi kimi olmazsa, həmin şəxsin özü kafir olar."***

Ey müsəlman qardaşım! Diqqət yetir ki, bir şeyin küfr olması heç də onun icraçısının kafir olması demək deyildir. Əksinə, yuxarıda qeyd olunduğu kimi burada bütün şərtlər cəm edilməli və maneələr aradan qaldırılmalıdır. Belə halda tələsmək nəyə gərəkdir?

16) Quranda və Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) səhih hədislərində zikr olunan Allahın ad və sifətlərini Onu məxluqata bənzətməkdən ehtiyat edərək onları Qurana və Peyğəmbərin hədislərinə zidd yozmaq. Allah Özü haqda əl-Maidə surəsinin 64-cü

ayəsində xəbər verərək buyurmuşdur: " Əksinə Allahın iki əli də açıqdır." Ayələrə yozum verənlər **"İki əl"** kəlməsinin iki qüvvət mənasını daşıdığını deyirlər. Onlar iddia edirlər ki, nöqsansız Allahın iki əli var desək onda biz Yaradanı özümüzə oxşatmış oluruq. Beləcə də pak Allahı oxşatmaqdan çəkindiklərini əsas gətirərək Onun əl-İtyən (gəlmək), ər-Rəhmə (Rəhmət) və sairə sifətlərini yozurlar. Bu əməl, etiqad məsələsində mənfur azğınlıqdır. Çünki, Allahın sifətlərini Ona layiq şəkildə isbat etmək, Onu məxluqata bənzətmək demək deyildir. Allaha məxsus olan bu sifətləri oxşatmasız da təsdiqləmək mümkündür. Məsələn, kiminsə insanın da, heyvanın da iki əli var sözü, onun bu əlləri bir-birinə bənzətməsi demək deyildir. Çünki, onların hər ikisinin özünəməxsus əli vardır. Şübhəsiz ki, ən uca misallar Allaha aiddir. "Onun iki əli var"– deməklə, necə ki, bunu Allahın Özü buyurur, O, məxluqlara bənzədilmir. Bu səbəbdən də, Allah, Özü barədə olan bu iki sifəti isbat etmiş və bununla yanaşı oxşatmanı inkar etmişdir. O buyurur: **"Ona bənzər heç bir şey yoxdur. O, eşidəndir, görəndir!"** (əş–Şura,11)

Həmçinin yozum və inkar edənlərin bu sözlərindən Allahın sifətinin olmaması başa düşülür. Belə olan halda isə, onlar Allahı mövcud olmayanlara bənzətmiş olurlar. (Nəticə etibarı ilə günah olduğunu) zənn etdikləri işdən qaçıb ondan da pisi ilə üzləşirlər.

Allahın kəlamını təhrif edən, Onun ad və sifətləri barədə həqiqi danan bu kəslər öz çirkin əməllərindən nə vaxt əl çəkəcəklər?

17) Tövhidə zidd əməllərdən biri də bəzi müsəlmanların etdikləri haram işlərə bəraət qazandırmaq üçün özlərini qəlbən təmiz və pak olduqlarını iddia etməsidir. Həmin kəslərə etdikləri əməlin haram olduğunu bildirəndə, qəlbin əsas olduğunu və onların da qəlbən iman gətirdiklərini deyirlər. Bu, Allah qullarının nəzərində günah və asilikləri sadələşdirmək üçün lənətlənmiş şeytanın bəzədiyi bir səhv işdir. Bu inamın səhv cəhətləri aşağıdakılardır:

a) Həm zahirən, həm də daxilən təmizlik, gərəkli və ayrılmaz cütlükdür. Əgər zahir safdırsa, deməli daxil də safdır. Həmçinin bunun əksi olaraq, zahirin çirkinliyi daxilin də çirkin olmasına sübutdur. Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) bunu belə izah edir: ***"Bədəndə bir ət parçası var ki, o sağlam olarsa bütün bədən sağlam olar. O yararsız olarsa, bütün bədən də yararsız olar. Məgər həmin ət parçası qəlb deyilmi?"*** . Hədisi Buxari və Müslim öz "Səhih" əsərlərində ən-Numan ibn Bəşirdən rəvayət etmişlər.

Asilikləri aşkarda edən və bununla yanaşı özünün daxilən təmiz olduğunu düşünən kəs, şeytanın azdırdığı bir xatakardır.

b) İmam Müslimin Əbu Musa əl–Əşaridən rəvayət etdiyi hədisdə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"Allah sizin surətlərinizə və can-cüssənizə deyil, qəlblərinizə və əməllərinizə baxar."*** Deməli, Allah təkcə qəlbə deyil, onların hər ikisinə (yəni, həm qəlbə, həm də əmələ) baxar.

c) Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) dində bəyənilməyən (ərəb. munkər) bir işlə rastlaşdıqda ona öz etirazını bildirərdi. Belə ki, Müslimin Əbu Səiddən rəvayət etdiyi hədisdə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdu: ***"Sizlərdən kimsə bəyənilməyən bir işlə qarşılaşarsa, onu əli ilə dəyişsin. Əli ilə edə bilməsə, dili ilə etsin (yəni, sözlə desin -tər). Yox əgər bunu da edə bilməsə, qəlbiylə dəyişsin. Bu (yəni, sonuncu hal -tər.) imanın ən zəifidir."*** Əgər daxilən saf olan insanın zahiri fəsada uğrayarsa və bu heç nəyi dəyişməzsə, bəs elə isə nə üçün Peyğəmbər (ona Allahın salavatı və salamı olsun!) açıq-aşkarda edilən şəriətə zidd bir işə öz etirazını bildirmişdi!

**Qeyd:**

Bəzi insanlar "iman yalnız qəlbdədir" sözünü dayanmadan təkrarlayırlar. Onlar səhvə yol verməklə yanaşı Quranın açıq-aşkar ayələrinə, Sünnədə varid olan çoxsaylı hədislərə və

eləcədə ümmətin sələfinin etiqadına qarşı çıxırlar. Saleh sələflərin yolu ilə gedən əhli sünnəyə görə iman, söz, əməl və etiqaddan ibarət olub Allaha itaətlə artar və Ona asiliklə azalar. Müslimin Əbu Hüreyrədən (Allah ondan razı olsun!) rəvayət etdiyi hədisdə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"İman yetmişdən artıq şöbədən ibarətdir. Onun ən üst qatında lə iləhə illəllah kəlməsi, aşağısında isə yolda olan maneəni kənar etmək durur. Həya da imanın bir şöbəsidir."***

Bu və bir çox bənzər hədislərdə imanın təkcə etiqaddan (qəlbdən) deyil, əksinə, sözlə ifadə edilən ("lə iləhə illəllah" kimi) və əməllə görülən (yoldan insanlara narahatçılıq törədən əşyaları kənarlaşdırmaq kimi) itaətlərdən ibarət olması vurğulanır. Əhli sünnəyə görə böyük küfr sözlə, əməllə və eləcə də etiqadla ola bilər. Belə ki, dini, Allahı və Peyğəmbəri söymək dillə, Quranı (natəmiz yerə ataraq və s.) təhqir etmək və bütə səcdə etmək əməllə, kainatı uca və nöqsansız Allahdan başqa birinin idarə etməsinə inanmaq isə etiqadla bağlı olan küfrdür. Allah təala buyurur: **"Onlardan soruşsan: "biz ancaq söhbət edib zarafatlaşırdıq", –deyə cavab verərlər. De: "Allaha, onun ayələrinə və rəsulunamı istehza edirsiniz? Üzr istəməyin. Siz iman gətirdikdən sonra artıq küfr etdiniz."** (ət-Tövbə, 66, 65). Insanı İslamdan çıxaran bu əməlləri qəsdli şəkildə zarafatda işlədən kəs də, ayədəki istehza edənlərin küfrə yol verdiyi kimi, küfr etmiş sayılır. Bu əhli sünnənin yekdilliklə qəbul etdiyi bir nəzər nöqtəsidir.

18) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun!) vəfatından sonra Onun səhabələri arasında olan çəkişmələri yada salmaq və bunu ümumi mühazirələrdə yaymaq. Bu, saleh sələflərin, səhabələr arasında olanları qabartmamaq və onların bu hadisələrdə müctəhid (yəni, fitva verməyə səlahiyyəti çatan şəxs – red.) olmaları, həmin mübahisələrdə səhabələrin haqlı olanına iki, digərinə isə bir əcr düşməsi barəsindəki etiqadına müxalifdir. İmam Buxari və Müslimin "Səhih" əsərlərində Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) belə buyurur: ***"Əshablarım haqqında nalayiq danışmayın. Nəfsimi əlində tutana and olsun ki, əgər sizlərdən biriniz Uhud dağı qədər qızıl sədəqə versəydi, bu nə onların verdiyi bir ovuc sədəqəyə, nə də onun yarısına bərabər olar."***

Səhabələr arasında baş vermiş hadisələri yaymaq insanlarda onlara qarşı qəzəb hissi oyadır və qəlblərindəki sevgini azaldır. Baxmayaraq ki, belə rəvayətlərin çoxu nəinki sübuta yetməmiş, hətta yalandan uydurulmuş məlumatlar olur. İslam tarixçisi imam əz-Zəhəbinin bu barədə çox gözəl bir sözü vardır. O deyir: *"Səhabələr (Allah onların hamısından razı olsun!) arasında baş vermiş bir çox hadisələr, xüsusən də müharibələr haqqında danışmamaq bir qayda olaraq qəbul olunmuşdur. Düzdür, bu rəvayətlərin bir çoxu ilə külliyyatlarda, kitab və kitabçalarda rastlaşırıq. Lakin buna baxmayaraq onların əksəriyyəti isnad baxımından qırıq (yəni, rəvayətçilər arasında bağlılığı itən – red.), zəif və yalan olurlar. Bu, bizim əlimizdə olan əsərlərdə və eləcə də alimlərimiz arasında bəlli olan bir məsələdir.*[4]

*Səhabələrə qarşı qəlblərin təmiz olması, onların sevilməsi və onlardan razı qalınması üçün bu cür rəvayətlər nəinki ört-basdır edilməli və gizlədilməli, hətta birdəfəlik silinib atılmalıdır. Onların ümumu kütlədən və bəzi alimlərdən gizli saxlanılması lazımdır. Insaflı və bidətdən uzaq alimlərə isə belə rəvayətləri xəlvətdə oxumağa icazə verilir. Bu, Uca Allahın öyrətdiyi kimi səhabələrə istiğfar diləmək şərtilə edə bilər. O buyurur:* **"Onlardan sonra gələnlər belə deyərlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə**

[4] Ey müsəlman qardaşım! Saleh sələflərdən olan dahi alim, "Tərixul-İslam", "Sira ələm ən-Nubələ", "Mizənul-etidəl" və sairə onlarla tac əsərin müəllifi, minlərlə rəvayətçinin tərcümeyi-halını toplayan, tədqiq edən, tarixçi Imam əz-Zəhəbinin təvazükarlığına diqqət yetir! O özünü alimlər deyil, sıravi oxucular və ya tələbələr sırasında təqdim etmişdir.

**qarşı kinə yer vermə.”** (əl–Həşr, 10). *Onlar yaxşı əməldə öndə gedən, günahlara kəffarə olacaq işlər edən, məsələn, (pislikləri) silən cihadları və saf ibadətləri olan bir qövm idilər".*

Allah Elçisinin (ona Allahın salavatı və salamı olsun!) səhabələrinə nəzər salan insan, onların ümmət arasında ən mərhəmətli qəlbə, dərin zəkaya və elmə yiyələnmiş şəxslər olduğunu görər. Səhabələr vəhyin nazil olmasına şahid olmuşlar və bu hadisə onların gözü önündə baş vermişdir. Həmçinin vəhiyin təbliğatçısı olan Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) birbaşa onların qarşısında idi. Buna diqqət yetirən bir çox alimlər səhabələrin sözünün şəriətdə dəlil sayıldığını demişlər.

Allahdan könüllərimizdə onlara olan məhəbbəti artırmağını, bizi Özünün kəramət bağçasında onlarla birgə etməsini dua edirik. Sözsüz ki, insan sevdiyi kəslə olar.

Haşiyə: Şeytan heç bir biliyi olmayanları süsləmiş onlar da ictimaiyyət qarşısında şərəfli səhabələri parçalayan fitnələr haqqında yazılı mühazirələr vermişdirlər. Sonra həmin yazılı mühazirələr böyüklü-kiçikli Allahın dinindən heç bir xəbəri olmayan avam insanlar arasında satılmışdır. Nəticə etibarı ilə həmin mühazirələr ağlasığmaz fitnə–fəsadlar törətmişdir. Onun hüdudları yalnız Allaha bəllidir. Bu mühazirələrdə çoxsaylı yalan və zəif rəvayətlər danışılır. Pak səhabələr (Allah onlardan razı olsun!) haqda kifayət qədər uydurma və böhtan mahiyyətli ifadələr söylənilir. Belə çıxışlarda zəlalət yolçusu olan azğın bir firqəni, rafizi şiələrini (Allah da onlardan üz çevirsin!) sevindirən məqamlar da az deyildir. Belə ki, onların əqidələri səhabələrə (Allah onlardan razı olsun!) kafir demək, onları alçaltmaq üzərində qurulmuşdur. Dininin qeyrətini çəkən müsəlman onu da bilməlidir ki, həmin firqə möminlərin anası Aişəni (Allah ondan razı olsun!) zinada ittiham edir, qiyamət günü ona zinakarlara veriləcək cəzanın veriləcəyini iddia edir. Bu kəslərin ikiüzlülüklə[5] etdikləri əməllər səni aldatmasın. Onlar sevgi nümayiş etdirib daxillərində düşmənçilik və ədavət bəsləyirlər. Ayıq ol, dininə möhkəm sarıl! Onların yalandan nümayiş etdikləri səni aldadıb onlara qarşı düşmənçilik bayrağını yerə qoymağa vadar etməsin. Allah sənə bu işdə kömək olsun!

19) Tövhidə zidd əməllərdən biri də hakimlərə qarşı çıxmaqdır. Belə bir əməlin, dinə və qan tökülməsinə gətirib çıxaran böyük fəsadları olur. Dinin qorunması və müsəlmanların qanlarının tökülməməsi üçün partlayışlara və qətllərə son qoyulmalıdır. Əvəzində isə, insanları yüksək effektə malik bir metodla dəvət etmək lazımdır. Əgər onlar bu çağırışa cavab verərlərsə, Allaha həmd olsun. Yox imtina edərlərsə, həmin dəvətçi öz üzərinə düşən işi yerinə yetirmiş sayılar. İmam Əhməd ibn Əbdulhəlim əl-Hərrani (yəni, İbn Teymiyə - red.) “Minhəc əs-Sünnə” (3,391)–də belə deyir: *“Əhli sünnənin məşhur rəyinə görə, onlar hakimlərə qarşı çıxmağı, qılıncla döyüşməyi icazəli saymırlar. Bu, hakimlərin zülm etdiyi hallarda da yolverilməzdir. Allah Elçisinin (ona Allahın salavatı və salamı olsun!) çoxsalı (ərəb. mütəvatir) hədislərində məhz bu mövqe öz təsdiqini tapmışdır... Tarix boyu hakimiyyət əleyhinə çıxan elə bir dəstə yoxdur ki, onun bu addımı, aradan qaldırmaq istədiyi fəsadlardan da ağır bir fəsada gətirib çıxartmasın.”*

Ona da diqqət yetirilməlidir ki, bütün silahlı qiyamların əvvəli sözlə başlamışdır. Bundan xəbərdar ol! Pis əməlləri gözəl üslubda inkar etməklə və hakimlərin eyiblərini insanlar qarşısında açmamaq və onların islahı və doğru yola yönəlməsi üçün dua etmək arasında ortaq mövqe tut! Axı onların islahı bütün ölkənin və insanların islahı deməkdir. Allah hamımızı İslamın və müsəlmanlarının izzətinə aparan yola yönəltsin.

Öz nəfsinə uymayan hər bir müsəlman ona da diqqət yetirməlidir ki, namazı, zəkatı kafirlərə ədavət bəsləməyi əmr edən nöqsansız uca Allah və Onun Elçisi (ona Allahın salavatı

[5] ərəbcə - təqiyyə və nifaq

və salamı olsun!), bizim üzərimizə hökmdarların da haqlarını qoymuşdur. Bu haqlardan bəziləri aşağıdakılardır:

a) Allaha asilikdən savayı digər işlərdə onlara tabe olmaq. Müslimin Huzeyfədən rəvayət etdiyi hədisdə Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) buyurur: ***"Başçının dediklərinə qulaq as, ona itaət et. Əgər kürəyinə vurub malınıəlindən alsa belə, ona qulaq as və itaət et."*** Müslimin Auf ibn Malikdən rəvayət etdiyi hədisdə isə, O buyurur: ***"Başçı təyin olunmuş hökümdarın Allaha asilik etdiyini görsən, onun Allaha asilik olan əməlini xoşlama. Lakin ona itaətdən boyun qaçırma."***

b) Hakimlərin səhflərini yaymamaq şərti ilə, onlara nəsihət etmək. İbn Əbu Şeybənin rəvayətində Səid ibn Cubeyr belə demişdir: Mən, İbn Abbasa belə dedim: *"Başçıma yaxşı işləri əmr edim? İbn Abbas dedi: Səni öldürməyindən ehtiyat edirsənsə, yox. Əgər belə bir işi edə bilirsənsə (yəni, təhlükə yoxdursa – red.), onda söhbət ikinizin arasında olsun. Hətta başçının qeybətini etməyəsən."*

Qeyd: Cihad, barəsində çoxsaylı dəlillərin və çağırışların olduğu bir şəriət tələbidir. Lakin, onu da bilmək lazımdır ki, cihad yer üzündə Allahın dinini bərqərar etmək üçün bir vasitədir. Əgər müəyyən bir hadisədə cihad, Allahın sözünün uca olması üçün məqsədəuyğun bir vasitə olarsa, ondan, əks halda isə başqa vasitədən istifadə olunar. Elə isə cihad vasitə olub özlüyündə yüksək məqsəd deyil. Buna sübut isə, cizyə müqabilində döyüşün saxlanılmasıdır. Əgər o, yüksək məqsəd sayılsaydı, cizyə almaqla dayandırılmazdı. Cihad, yer üzündə Allahın kəliməsini ucaltmaq üçün buyurulmuş bir əməldir. Əgər cihad yer üzündə Allahin kəliməsini ucaltmaq üçün ən effektiv və ən xeyirli vasitə olarsa onda o, önə çəkilər. Baxmayaraq ki, onu dəvətlə və ya faydalı sözlərlə əvəz etmək mümkündürsə, bu daha məqsədəuyğundur. Sözü gedən məsələnin bu müxtəsər kitabçaya sığmayan daha böyük açıqlaması var.

20. Tövhidə xələl gətirən əməllərdən biri də, bidətlərin yayılmasıdır. Həqiqətdə, onlar dini dağıdan bir əməllərdir. Təəssüfləndirici haldır ki, İslam aləmində çoxsaylı bidətlər yayılmışdır. Bunlardan biri də, Peyğəmbərin mövludu, İsra-Merac və sairə hadisələrlə bağlı olan mərasimlərdir. Belə mərasimləri nə Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun!) nə ondan sonra kəramətli səhabələr qeyd etmişlər. Həmçinin namazdan sonra birgə dua etmək, Quran oxumaq, bəzi ölkələrdə olduğu kimi cümə namazından sonra zöhr namazını qılmaq və sairə bu kimi bidətlər Allah Elçisinin (ona Allahın salavatı və salamı olsun!) və onun əməlisaleh səhabələrinin (Allah onlardan razı olsun!) etmədikləri ibadət formalarıdır. Maraqlıdır, görəsən Allah Elçisi (ona Allahın salavatı və salamı olsun!) və onun əməlisaleh sahəbaləri (Allah onlardan razı olsun!) belə əməllərdən üz çevirib?! Yoxsa bu əməllərdən qafil idilər?! Bəlkə, onlara laqeyd yanaşırdılar?! Əlbəttə yox! Onlar bu deyilənlərdən uzaqdırlar. Həqiqətdə bu əməllərin pak Allahı razı salmayacaq bidətlər olduğu üçün onları tərk etmişdilər.

21. Bəşəriyyətin Rəbbinin tövhidinə zidd olan əməllərdən biri də insanlar tərəfindən söylənilən çoxsaylı nalayiq sözlərdir. Yayılmış sözlərin bir neçəsini nəzərdən keçirək: "Allah sənə zülm etsin!" və yaxud "Allah sənə xəyanət etsin!". Həqiqətdə Allah təala heç kimə zülm və xəyanət etməz. Yaxud da kimsə öləndə "Filankəs son mənzilə köçdü"–demək. Bu söz, insanların yenidən diriləcəyini inkar edir və qəbr həyatından sonra heç nə olmayacağını ifadə edir. Digər bir söz isə, kafirə: "Dostum"–deməkdir. Kafirlər bizim və dinimizin düşmənləri olduqları halda onlar bizə dost ola bilməzlər.

Insanların dilində dolaşan xətərli sözlərdən biri də bəla ilə üzləşən birinə: "Filankəz buna layiq deyildir"– deməkdir. Bu, Allahın qəza və qədərinə etiraz əlamətidir. Həmçinin "Filankəs bizə bərəkət verdi"– sözünü demək düzgün deyildir. Çünki, "bərəkət verdi" (ərəb. təbərakə) xüsusi bir ifadədir və o, Allahdan başqasına deyilə bilməz. Daha sonra, "Qorunmaq Allah

məxsusdur"– sözünün mənasından belə başa düşülür ki, kimsə Allahı qoruyur. Əslində nə Allahı qoruyan, nə də kimisə Ondan qoruya bilən yoxdur. Sözlərdən biri də bəzi müəzzinlərin "Allahu Əkbər" ifadəsindəki "Əkbər" sözünün ikinci saitini səhvən iki dəfə uzatmasıdır. Şəriət və dilçi alimlərin bildirdiyi kimi bunun nəticəsində yaranan "Əkbəər" sözü ərəb dilində nağara mənasını verir. Allaha sığınırıq.

**Son söz:** Tövhidə zidd olan bu əməllər barədə dərindən düşünən şəxs, İmam Müslimin Əbu Hüreyrədən rəvayət etdiyi hədisi tam yəqinliklə anlayar. Peyğəmbərimiz Məhəmməd ibn Abdullah (ona Allahın salavatı və salamı olsun!) buyurmuşdur: ***"İslam qərib olaraq başladı və qərib kimi də qayıdacaqdır. Qəriblərə Tuba (müjdə) olsun."***

Bu müxalif və həlakedici əməlləri tərk etməyə səsləyən insanları, zəlalət və bidət yolunun sahibləri, peyğəmbərlərə, elçilərə, övliyalara və əməlisaleh insanlara nifrət edənlər kəslər adlandırırlar. Həqiqətdə isə, bütün bu deyilənlər zülm, haqsızlıq, şeytan hiyləsi və məkridir. Tövhidə zidd əməllərə öz etirazını bildirən insanlar, əslində lazımi qaydada Allaha və Onun Elçisinə itaətkarlıq göstərmişlər. Məgər Allaha və Onun Rəsuluna itaət etmək bidət və zəlalətdir? Ey bütün nöqsanlardan pak və ali olan Allah! Bu necə də böyük böhtandır.

**Sizə Allahın salamı, rəhməti və bərəkəti olsun!**